ASC "Xalq" Bankının ödəniş
kart(lar)ının buraxılması və
on(lar)a xidmət göstərilməsi haqqında
Müqaviləyə
Əlavə № 12-1

**Fərdi sahibkarlar üçün Bankın Korporativ Ödəniş kartlarının buraxılması və onlara xidmət göstərilməsinin xüsusiyyətləri**

1. Bu Əlavənin məqsədləri üçün "Korporativ Ödəniş kartı" termini altında Bank tərəfindən fərdi sahibkarın və ya onun işçi(si)(ləri)nin adına buraxılan və fərdi sahibkarın vəsaiti hesabına sahibkarlıq fəaliyyəti çərçivəsində bu Əlavə ilə müəyyən edilən Əməliyyatların aparılması üçün nəzərdə tutulmuş fərdi ödəniş vasitəsi (aləti) olan VİSA İnternational və ya MasterCard Worldwide Ödəniş sistemlərinin beynəlxalq Ödəniş kartı başa düşülür. Bu zaman Bank tərəfindən həm fərdi sahibkar olan Kart saxlayıcısının, həm də onun işçi(si)(lər)inin adına Əsas kart(lar) və/və ya Əlavə kart(lar) buraxıla bilər. Əsas kart üzrə Əlavə kartlar say baxımından məhdudiyyət qoyulmadan buraxıla bilər.
2. Bu Əlavə ilə nəzərdə tutulmuş Əməliyyatların aparılması üçün fərdi sahibkara və ya onun işçi(si)(ləri)nə Bank tərəfindən Korporativ Ödəniş kart(lar)ı aşağıdakı növlərdən birində buraxılır:
   1) Visa Business;
   2) Visa Business Platinum;
   3) MasterCard Business.
3. Korporativ Ödəniş kart(lar)ından istifadə etməklə əməliyyatların aparılması üçün KH(-lar) yalnız fərdi sahibkara açılır. Bu səbəbdən fərdi sahibkarın işçi(si)(ləri)nin adına bu Əlavənin 1-ci bəndinə müvafiq olaraq Əsas kart(lar)ın buraxılmasının mümkün olmasına baxmayaraq, bu Müqavilənin müvafiq Əlavələri ilə nəzərdə tutulmuş ərizələri Kart saxlayıcısı (Əsas kart Saxlayıcısı) qismində imzalamaq və həmin ərizələrdə nəzərdə tutulmuş məsələlər üzrə Müqavilə ilə müəyyən edilmiş Kart saxlayıcısının hüquq və öhdəliklərini həyata keçirmək səlahiyyəti fərdi sahibkara məxsus olacaq.
4. Bu Əlavənin 3-cü bəndinin müddəalarına baxmayaraq Müqavilənin 3.3.11-ci bəndində nəzərdə tutulmuş hallarda fərdi sahibkarın işçisi olan Kart saxlayıcısı da ləngimədən Korporativ ödəniş kartının ləğv olunmaqla tam bloklaşdırılması üçün Bankın Çağrı mərkəzinə Qaydalarla nəzərdə tutulmuş qaydada müraciət edə bilər.
5. Korporativ Ödəniş kartı üzrə KH fərdi sahibkara AZN, USD, EUR valyutarından birində açıla bilər. Fərdi sahibkar Korporativ Ödəniş kartları üzrə bu Əlavə ilə müəyyən edilmiş Əməliyyatların aparılması üçün bu bənddə nəzərdə tutulmuş müxtəlif valyutalarda bir neçə KH-ları aça bilər.
6. Korporativ Ödəniş kart(lar)ından istifadə etməklə əməliyyatların aparılması üçün fərdi sahibkara açılmış KH üzrə Kart saxlayıcısı(ları) aşağıdakı Əməliyyatları həyata keçirə bilər:
- Azərbaycan Respublikasının ərazisində fərdi sahibkarın sahibkarlıq fəaliyyəti ilə bağlı xərclərin, o cümlədən ezamiyyə və nümayəndəlik xərclərin ödənilməsi;
- Azərbaycan Respublikasının qüvvədə olan qanunvericiliyinin tələblərinə riayət etməklə Azərbaycan Respublikası ərazisindən kənarda fərdi sahibkarın sahibkarlıq fəaliyyəti ilə bağlı xərclərin, o cümlədən ezamiyyə və nümayəndəlik xərclərinin ödənilməsi.

Bu bənddə nəzərdə tutulmuş Əməliyyatların aparılması nəticəsində KH-dən silinmiş vəsaitlər fərdi sahibkar tərəfindən Kart saxlayıcısına təhtəlhesab verilmiş sayılır.

Korporativ Ödəniş kart(lar)ından əmək haqqının ödənilməsi və digər sosial xarakterli ödənişlərin aparılması, kredit müqavilələri üzrə hesablaşmaların aparılması, "Unique" (internet-kazino, mərc oyunlarında iştirakla bağlı), "Card to Card" tipli Əməliyyatların aparılması, KH-dan nağd vəsaitlərin çıxarılması, sahibkarlıq fəaliyyəti çərçivəsində fərdi sahibkar üçün alınan mal, iş və xidmətlərin ödənilməsi ilə bağlı olmayan üçüncü şəxslərin cari hesablarına köçürmələrin edilməsi və fərdi sahibkarın sahibkarlıq fəaliyyəti ilə bağlı olmayan digər Əməliyyatların aparılması üçün istifadə oluna bilməz.

7. Korporativ Ödəniş kartı üzrə KH-ya pul vəsaitləri fərdi sahibkarın və ya üçüncü şəxslərin yalnız cari hesab(lar)ından köçürüldüyü təqdirdə mədaxil edilir. Korporativ Ödəniş kartı üzrə KH-ya Bankın kassası, Banka və ya digər rezident banklara məxsus bankomatlar vasitəsilə nağd pul vəsaitlərinin mədaxil edilməsi və bu bənddə nəzərdə tutulduqdan fərqli qaydada pul vəsaitlərinin nağdsız köçürülməsi üzrə əməliyyatlar həyata keçirilmir.

8. Fərdi sahibkarla onun işçisi olan Kart saxlayıcısı arasında əmək münasibətlərinə xitam verildiyi təqdirdə, bu barədə əmrin verildiyi tarixdən 2 (iki) iş günündən gec olmayaraq Fərdi sahibkar adına Korporativ Ödəniş kartı buraxılmış Kart saxlayıcısının işdən (vəzifədən) azad olunması haqqında yazılı xəbərdarlığı Banka təqdim etməlidir.

9. Bu Əlavənin 8-ci bəndində nəzərdə tutulmuş halda Bank tərəfindən fərdi sahibkara məsləhət görülür ki, fərdi sahibkarın işdən (vəzifədən) azad edilmiş işçisinin istifadəsində olmuş Korporativ Ödəniş kartından təkrar istifadə edilməsin və həmin Kartın ləğv olunmaqla tam bloklaşdırılması üçün Banka müraciət edilsin. Əks halda həmin Kartdan icazəsiz (səlahiyyəti olmayan şəxs tərəfindən) istifadə edilməsi nəticəsində fərdi sahibkara, hər hansı üçüncü şəxsə və ya Banka dəyə biləcək maddi zərərə görə risk və ya müvafiq olaraq məsuliyyət fərdi sahibkarın üzərinə düşür.